# Mən sənə hədiyyə eləmək üçün Bir dünya məhəbbət gətirəcəyəm.



İlham İNAM

## Anamın xeyir-duası

Nəzəri üstümdə, gözü üstümdə,
Hər zaman birgədi o dua mənlə.
Həm yaxşı günümdə, həm pis günümdə,
Oyaq olsam mənlə, yuxuda mənlə.

Durub keşiyimdə qoruyur məni,
Qıymaz yel də keçə başımın üstən.
Şirin bir qayğıyla bürüyər məni.
Oxşayar o məni həzin,ahəstə.

Mənlə addımlayar hər an yanımda,
O mənlə ac qalır, o mənlə toxdu.
Tanrımın duası istehkamımsa,
Ana duasının savabı çoxdu.

Özü getməsə də mənlə bir yana,
Xeyir-duasını mənlə göndərər.
Sənin duaların hər zaman, ana,
Xətadan, bəladan məni döndərər.

Maşından qoruyar, çaydan qoruyar,
Ömrümə nur çilər o dua mənim.
Yamandan, bir haram paydan qoruyar,
Arxamca su çilər o dua mənim.

Yaşayıb bu ömrə, yaşa dolmuşam,
Tanrımın, Xudamın dualarıyla.
Bir çox təhlükədən xilas olmuşam,
Bəlkə də anamın dualarıyla.

Xeyir-duasının içindən baxır,
Anamın gözləri mənə dikilib.
Mən uzaqda olsam o çox darıxır,
Gözünün yuxusu ərşə çəkilib.

O xeyir-duaya borcluyam lap çox,
İşlərim həmişə yağ kimi gedib.
Hər bir uğur üçün məndə hünər yox,
Nə varsa o xeyir-dualar edib.

Yatmayıb, gözündən yuxu tökülüb,
Saatın əqrəbin anbaan sayıb.
Hamı xörəyini yeyib çəkilib,
O isə ağzına loxma almayıb.

Dualı anama ömür dilərəm,
İstəməz o, susuz, ac qalmağımı.
Hər zaman özümə şərəf bilərəm,
Anamın gözündə ucalmağımı.

## Mən sənə hədiyyə eləmək üçün

*Həyat yoldaşım Səidə xanıma*

Mən sənə hədiyyə eləmək üçün,
Ulduz göndərəcəm, Ay göndərəcəm
Mən sənə hədiyyə eləmək üçün
Sevən ürəyimi pay göndərəcəm.

Mən sənə hədiyyə eləmək üçün,
Buket bağladacam sevgimi büküb.
Mən sənə hədiyyə eləmək üçün
Yerə endirəcəm Günəşi çəkib.

Mən sənə hədiyyə eləmək üçün,
Sovqatın olacaq xoş səhər mehi.
Mən sənə hədiyyə eləmək üçün,
Yığıb gətirəcəm qövsü-quzehi.

Mən sənə hədiyyə eləmək üçün,
Sərəcəm önünə bir çəmən çiçək.
Mən sənə hədiyyə eləmək üçün,
Sənin olacağam istədiyintək.

Mən sənə hədiyyə eləmək üçün,
Bütün gözəlliyi dəvət edəcəm.
Mən sənə hədiyyə eləmək üçün,
Bir ömür sevgidən söhbət edəcəm.

Mən sənə hədiyyə eləmək üçün,
Xoşbəxtlik,səadət gətirəcəyəm.
Mən sənə hədiyyə eləmək üçün
Bir dünya məhəbbət gətirəcəyəm.

## Sənin vuruşunla mənim vuruşum

Heç nə xatırlatmır yalnız görünür,
Allahın özütək yalqız görünür.
Gendən baxanlara cılız görünür
Sənin duruşunla, mənim duruşum.

Həris görkəmini doyura bilmir,
Özünü qılınc tək sıyıra bilmir.
Qalibi məğlubdan ayıra bilmır,
Sənin vuruşunla, mənim vuruşum.

Bir misqal,bir arşın boyundan ölçür,
Keçmişi,dünəni bu gündən ölçür.
Dünyanı bu başdan, bu yandan ölçür,
Sənin qarışınla, mənim qarışım.

Ömür,gün sirrinin bağlanc yeridi,
İtən günümüzün qazanc yeridi.
Ayların, illərin saxlanc yeridi
Sənin qırışınla, mənim qırışım.

Çatmışıq yoxuşun eniş xəttinə,
İmzayıq taleyin tanış xəttinə.
Heç də tələsimir finiş xəttinə
Sənin yarışınla, mənim yarışım.

Həyat əzabını "hədiyyə" bilər,
Bəndə Tanrısına nə deyə bilər?
Hansı ehtiyacı ödəyə bilər,
Sənin quruşunla, mənim quruşum.

Həyatda yaşamaq naminə olar,
Adına yaraşar, namına olar.
Küsən ürəklərə nümunə olar
Sənin barışınla, mənim barışım.